## *Naxçıvan musiqiçilərinin dirijorluq fəaliyyəti*

**Yusifova Ruqiyyə (AMK)**
**Fakültə: Musiqi tarixi və nəzəriyyəsi**
**Kurs: II**
**Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Jalə Qulamova**

Azərbaycan musiqisinin hər bir sahəsi Azərbaycan xalqı üçün dəyərlidir. Bu sahələrdən biri olan dirijorluq sənəti, bir sıra şəxslərin yaradıcılıq yolundan keçərək indiki dövrümüzə qədər inkişaf etmiş və etməkdədir. Səid Rüstəmov, Qılman Salahov, Əfrasiyab Bədəlbəyli, Əşrəf Həsənov, Niyazi Tağızadə Hacıbəyov, Çingiz Hacıbəyov, Tofiq Quliyev, Soltan Hacıbəyov, Tofiq Əhmədov, Nazim Rzayev, Azad Əliyev, Yaşar İmanov, Kazım Əliverdibəyov, Rauf Abdullayev, Sərvər Qəniyev, Həsənağa Abbasquliyev, İsmayıl Hacıyev, Cavanşir Cəfərov, Fəxrəddin Kərimov, Teymur Göyçayev, Yalçın Adıgözəlov, Nazim Hacıəlibəyov, Nadir Əzimov, Fəxrəddin Atayev, Əyyub Quliyev Azərbaycanın sayılıb, seçilən dirijorlarından olmuşdur. Bu şəxsiyyətlərin hər biri öz yaradıcılıqları ilə Azərbaycan musiqi sənətinin dirijorluq sahəsində əbədi yolunu göstərmişdir.

Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvan Muxtar Respublikası musiqi mədəniyyətini, musiqi həyatını Naxçıvanın unudulmaz və dəyərli dirijorları rəngləndirmişdir. Naxçıvan diyarında doğulmuş musiqiçilər sırasında Nəriman Məmmədov, Ramiz Mirişli, Məmməd Məmmədov, Məmməd Ələkbərov, Rəşid Məmmədov, Yaşar Səfərov, Səidə Məmmədova, Əkrəm Məmmədli, Nazim Kazımov, Nazim Quliyev, Həsənağa Qurbanov, Müsəvvər Əsgərov, Əqidə Ələkbərova, Arif Quliyev, Rəfayıl Kərimov, Tariyel Abbasov, Şəmsəddin Qasımov, Çingiz Axundov, Zeynalabdin Babayev, Elman Əliyev, Tağı Tağıyev,Vidadi Heydərov, Azər Abbasov, Kamal Əhmədov, Şəmsəddin Qasımov, Aydın Məmmədli, Fəxrəddin Bağırov, Ramazan Axundov, Namiq Teymurov, Ələkbər Ələkbərov, Mahirə Əsgərova, Məhin Orucova, Validə Hüseynova, Sevinc Cəfərovanın adlarını qeyd etməmək olmaz. Ümumiyyətlə Naxçıvan musiqi mədəniyyəti heç bir dövrdə ictimai inkşafdan geri qalmamışdır. Naxçıvan şəhərində və rayonlarda mahnı və rəqs kollektivləri fəaliyyət göstərmişdir. Naxçıvanda keçirilmiş məqsədyönlü tədbirlər, konsertlər, bəstəkarlar, xanəndələr, müğənnilər, tarzənlər, kamança çalanlar, dirijorlar onu göstərir ki, bir sözlə Azərbaycan musiqisini zirvələrə aparan musiqiçilər yetişdirmişdir. Naxçıvan hər zaman, hər dövrdə tarix boyu Şərqin qapısı adlandırıldığı kimi, həm də mədəniyyətə açılan bir məkan olmuşdur. Naxçıvan Muxtar Respublikasında hər zaman musiqi mədəniyyət mərkəzləri, musiqi məktəbləri, Orta ixtisas musiqi məktəbi (indiki musiqi kolleci), Filarmoniya, Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Konservatoriya öz fəaliyyətlərini bu gün də davam etdirirlər. Həmçinin xalq çalğı alətləri orkestri, milli folklor ansamblı, xor kapellası, yallı rəqsləri hər zaman mövcud olmuşdur.

Naxçıvan Muxtar Respublikasının kütləvi xor tədbirləri ilk dəfə olaraq Naxçıvan xor məktəbinin banisi Məmməd Məmmədov tərəfindən keçirilmişdir. 1950-ci illərin əvvəllərindən başlayaraq Naxçıvan şəhəri uşaq pionerlər evində yaradılmış xor kollektivi 1960-cı illərin əvvəllərindən isə Naxçıvan şəhər 3 nömrəli ümumtəhsil məktəbində hər il keçirilən mahnı bayram tədbirləri dediklərimizə əyani sübutdur.

Naxçıvanda doğulmuş, Naxçıvan dirijorluq sənətində, Naxçıvan musiqisində dərin iz buraxmış unudulmaz dirijorlar yetişmişdir. Bu dirijorlar içərisində Məmməd Məmmədov, Rəşid Məmmədov, Çingiz Axudov, Səidə Məmmədova, Kamal Əhmədov, Həsənağa Qurbanov, Məhin Orucova, Rəfael Kərimov, Mahirə Əsgərova, Sevinc Cəfərova, Validə Hüseynova kimi dirijorlarımızın adlarını qeyd etmək olar.

Məlum bir həqiqətdir ki, Naxçıvanda hərbi orkestr də mövcuddur. Hal-hazırda hərbi orkestrin bədii rəhbəri kapitan Cavanşir İsgəndərovdur.

Azərbaycan musiqişünaslığında böyük maraq doğuran Naxçıvan musiqiçiləri, onların həyat və yaradıcılığı, bəzi musiqiçilərin dirijorluq fəaliyyəti artıq musiqişünaslıq tədqiqatlarının obyektinə çevrilmişdir. Təbii faktdır ki, Naxçıvan şəhərində istedadlı gənclər çoxdur. Onların içərisində isə istər musiqişünaslıq, istər bəstəkarlıq, istərsə də dirijorluq həyatlarında göstərdikləri həvəskarlar diqqətəlayiqdir.

Naxçıvanda musiqiçilərin dirijorluq fəaliyyəti araşdırılma baxımından maraqlı bir mövzudur. Bu baxımdan Naxçıvanda yetişmiş dirijorların fəaliyyəti və onların təşkil etdiyi bir çox konsertlər bunu sübut etməkdədir.